

Nüsrət KƏSƏMƏNLİ

**AĞLAMA, TƏBRİZİM, AĞLAMA…**

Demə, yollar uzaqdır,
Araya bir çay düşüb,
Vüsal kimin qisməti,
Bizə həsrət pay düşüb.
Birimizə göz yaşı,
Birimizə toy düşüb;
Danış, ucadan danış,
Sən dilini bağlama,
Ağı dediyin bəsdir,
Ağlama, Təbrizim, ağlama.

Ölənlər torpağındır,
Bizə sağlar qalıbdır,
Baxıb köks ötürməyə
Qarlı dağlar qalıbdır,
Bir gözümüz gülürsə,
Biri ağlar qalıbdır,
Sil gözünün yaşını,
Ürəyimi dağlama,
Ağlama, Təbrizim, ağlama.

Bir torpağın üstündə
O taylı, bu taylıyıq.
Torpaq ki ömür deyil,
Necə gəldi, paylarıq.
Nə qədər “qardaş” deyib
Uzaqdan haraylayaq?
Ucalt haqqın səsini,
De sözünü, saxlama,
Ağlama, Təbrizim, ağlama.

Bəlkə, bənövşəmizi
Bu nisgil, həsrət əyir?
Araza körpü üçün
Torpaq oğul istəyir,
Sənə əl uzadıram,
Soyuq məftilə dəyir,
Sən güvən öz ağlına,
Döyüşkən, düz ağlına,
Ağlama, Təbrizim, ağlama.

Çoxu dil pəhləvanı,
Sözdə aşıb-daşırıq,
Bu günahsız Araza
Neçə günah qoşuruq,
Vətənin ortasında
Məftilə dolaşırıq,
Bir də bax dünəninə,
Kimsəyə bel bağlama,
Dur ayağa, ”Vətən” de,
Ağlama, Təbrizim, ağlama!..